# I Hissə. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası

## TARİXİ ARAYIŞ:

Federativ birliyin yaradılması ideyası V.İ.Lenin tərəfindən irəli sürülmüşdü. 1922-ci il martın 12-də Tbilisidə Azərbaycan SSR MİK, Ermənistan SSR MİK, Gürcüstan SSR MİK-in səlahiyyətli nümayəndələrinin konfransı Zaqafqaziya Sovet Sosialist Federativ Respublikaları Birliyinin (ZSSRB) yaranması ilə bağlı sazişi təsdiqlədi. Ali hakimiyyət - respublikaların hakimiyyəti tərəfindən bərabər sayda seçilən Səlahiyyətli Nümayəndələr Müşavirəsi, ümumi icra orqanı isə müşavirə tərəfindən seçilən Birlik Şurası idi. 1922-ci il dekabrın 13-də Birinci Zaqafqaziya Sovetlər Qurultayı (Bakı) ZSSRB-ni tərkibinə daxil olan respublikaların müstəqilliyini saxlamaq şərti ilə vahid Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının (ZSFSR) əsasını qoydu. Qurultay ZSFSR-in Konstitusiyasını təsdiqlədi, Zaqafqaziya MİK və ondan asılı olan ZSFSR-nin birləşmiş Xalq Komissarları Şurasını yaratdı. ZSFSR 1922-ci ildən 1936-cı ilə qədər mövcud oldu, daha sonra ləğv olundu və Azərbaycan, Ermənistan və Gürcüstan SSRİ-nin tərkibinə müstəqil sovet respublikaları kimi daxil oldular.

## Xalq Komissarlarının İcraedici Şurasının iclasının 10 May 1923-cü il tarixli protokolu

Xalq Komissarları İcraedici Şurasının 1923-cü il 10 may tarixli 16 nömrəli protokoluna əsasən Mamia (İvan) Oraxelaşvilinin sədrliyində bir neçə məsələlərə baxıldı. Digər məsələlər arasında 2500 nəfər erməninin Mesopotamiyadan köçürülməsi məsələsi də müzakirə olundu və qərar qəbul edildi ki, Ermənistan bu sayda köçürülənləri qəbul edəcək vəziyyətdə deyil.

2500 nəfər erməninin RSFSR-yə köçürülməsi məsələsi təxirə salındı.

## Ermənilərin köçürülməsi nə üçün lazım idi?
**(Tarix)**

Məsələ burasındadır ki, Ermənistan nümayəndə heyəti Lozanna Konfransında (20 noyabr 1922-ci il - 24 iyul 1923-cü il tarixində İsveçrənin Lozanna şəhərində Türkiyə ilə barışıq müqaviləsi hazırlamaq və Qara dəniz boğazları rejiminin qurulması üçün İngiltərə, Fransa və İtaliyanın təşəbbüsü ilə toplanan beynəlxalq konfrans) mövcud olmayan Ermənistan Respublikasını artıq təmsil edirdi və bəzi məsələlərə görə Ermənistanın xeyrinə aşağıdakı güzəştləri əldə etməyə çalışırdı:

1. Türkiyə daxilində ermənilər üçün ərazi ayrılması.
2. Şərqi Anadolunun dənizə çıxışı olan bəzi hissələrinin birləşdirilməsi vasitəsilə Sovet Ermənistanının ərazisinin genişləndirilməsi.

Bu cür cəfəng tələblərin əsas arqumentləri ondan ibarət idi ki, ermənilər böyük insan itkisi vermişlər, sağ qalanları isə fərqli ölkələrdə yerləşməyə məcbur olmuşdular. Ancaq Türkiyə qəti şəkildə bu iddiaları rədd etdi və opponentlərin əsaslandırdığı dəlilləri yerlə bir etdi. Bu Lozannada erməni məsələsinin bağlanmasına gətirib çıxardı. Erməni nümayəndələrinin böyük güc dövlətlərinin nümayəndələrinə yazdığı məktublar da cavabsız qaldı. Daha sonra ermənilər tərəfindən SSRİ Xarici İşlər Xalq Komissarı G.Çiçerinə teleqram göndərilir, cavab olaraq Çiçerin Rusiya və Ukrayna hökumətlərinin öz ərazilərində müəyyən sayda erməni qaçqınlarının yerləşdirilməsi təklifini irəli sürür.

23 mart 1923-cü ildə Kənd təsərrüfatı Xalq Komissarlığının idarə heyəti xarici ermənilərlə əlaqədar komissiya iclası keçirdi. İclasda dörd il müddətində 200 min xarici ermənin RSFSR (Volqaboyu ərazilər, Şimali Qafqaz), Cənubi Qafqaz və Mərkəzi Asiya (Türküstan, Qırğızıstan) ərazisində yerləşdirilməsinə dair 12 bənddən ibarət qərar qəbul etdilər. Bununla belə, köçürülmə ilə əlaqədar bütün xərcləri xarici ermənilərin köçürülməsi məsələsini həyata keçirən qurumlar öz üzərinə götürməli idi. Torpaq fondunun ayrılması, köçürülənlərin yaşayış evlərinin inşaatı üçün ayrılacaq xərclərin smetasını isə sovet hakimiyyət orqanları hazırlayıb həmin qurumlara göndərməli idilər.

1922-ci ildə İrandan, Mesopotamiyadan və Rusiyadan Ermənistan ərazisinə 9126 erməni gəlib çıxdı. 1923-cü ildə isə 126 min erməni-köçkün Ermənistan ərazisinə köçürüldü. Onlar (80 min nəfər) əsasən Ermənistan SSR-nin İrəvan, Üçmüəzdin və Yeni Bəyazit qəzalarında yerləşdirildilər. Ermənilərin böyük bir hissəsi daha əvvəl azərbaycanlıların tərk etdiyi torpaqlarda və evlərdə yerləşdirilmişdilər. Maraqlıdır ki, 1922-1923-cü illər ərzində Mosuldan (İraq) köçürülmüş 8000-dən çox erməni Azərbaycan SSR-nin müxtəlif rayonlarında yerləşdirilmişdilər.

**Xarici işlər üzrə Xalq Komissarlığı**
**31 mart 1924-cü il №VB/339**
**Canik vilayətindən 200 min ermənin köçürülməsinə dair.**

Xarici ermənilərin köçürülüməsi prossesi 1924-cü ildə də davam etdirildi. Canik (Türkiyə) ərazisində yaşayan 200-ə yaxın erməni (Türkiyə vətəndaşı)

Samsundakı Sovet konsulluğuna müraciət edir. 1924-cü il 31 martda Yaxın Şərq siyasi şöbəsinin rəhbəri S.Pastuxov ZSFSR-in XİXK-nın səlahiyyətli nümayəndəsi Y.Strauyana və ZSFSR-in Moskvada səlahiyyətli nümayəndəsi S.Ter-Qabrielyana gizli məktubunda ZSFSR rəhbərliyindən bu ermənilərin qəbul olunmasının mümkünlüyü barəsində soruşurdu. Nəticədə 1924-cü ildə Ermənistan SSR ərazisində 3507 erməni yerləşdirildi. 19 may 1925-ci il ZSFSR MİK-in kiçik rəyasət heyətinin iclasında bir qrup erməninin Naxçıvan SSR ərazisində yerləşdirilməsi qərara alındı. Bu, İstanbuldan (508 nəfər) və Yunanıstandan (460 nəfər) gələn ermənilər idi. Köçürülənlər üç il müddətinə bütün vergilərdən azad olunurdular.

Beləliklə, 1920-ci illərin ilk yarımilindən başlayaraq ermənilərin kütləvi şəkildə köçürülməsinə və onların coğrafiyasının genişləndirilməsinə başlanılır. Müxtəlif ölkələrdə yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsinə nail olaraq erməni siyasi xadimləri sonradan torpaq çatışmazlığı bəhanəsi ilə Azərbaycandan torpaq almağa, ən pis halda isə, köçkünlərin yerli türk əhalisinin öz torpaqlarından sıxışdırılıb çıxarılması hesabına köçkünlərin Sovet Ermənistanında yerləşdirilməsinə nail olmaq istəyirdilər.

## II Hissə. Dağlıq Qarabağın muxtar bölgəsi haqqında Nizamnamə

### 7 iyul 1923-cü ildə Dağlıq Qarabağın muxtar bölgəsinin yaradılması haqqında Azərbaycan MİK-in Fərmanı

### Fərmanın qəbul olunmasının tarixi

Çarizm dövründə ermənilər üçün əlverişli şəraitin yaradılması siyasəti Sovet hökumətinin qurulmasından sonra da davam etdirilirdi. 1917-ci ilin noyabrında Bakıda formalaşmış, fəaliyyətinin zirvəsinin 1918-ci ilin mart ayında elə burada ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən vəhşi soyqırımın olduğu bolşevik-daşnak hökumətinin meydana gəlməsi bunu açıqca sübut edir. 1918-ci ildə ADR-in yaranması ilə eyni vaxtda Qərbi Azərbaycanın tarixi torpaqlarında Ermənistan Respublikasının formalaşmasından sonra Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları artıq dövlət siyasəti xarakteri almağa başladı. Getdikcə "Dağlıq Qarabağ" termini sadəcə coğrafi deyil, siyasi məna almağa başladı. Bolşeviklərin Şimali Azərbaycanı fəth etməsindən sonra (28 aprel 1920-ci il) bu söz birləşməsi administrativ-siyasi mənada da istifadə edilirdi, o, Sovet Rusiyasının müdaxilə etdiyi Erməni-Azərbaycan münasibətlərinin siyasi leksikonunda əsas anlayışlardan biri oldu.

Azərbaycan və Ermənistan sərhədlərinin müzakirəsi məsələsində gündəmin mövzusunda əsas bənd Dağlıq Qarabağ məsələsi idi. Azərbaycan Kommunist

Partiyasının (bolşevik) - AKP(b)-nin Mərkəzi Komitəsinin Siyasi və Təşkilat Bürosunun 27 iyun 1921-ci ildə baş tutan iclasında komissiyanın Azərbaycanla Ermənistan arasındakı sərhədləri müəyyənləşdirmək üçün Tiflisdəki işi müzakirə edildi. Bu məsələni həll etmək üçün N.Nərimanov və A.Myasnikov (əsl familiyası Myasnikyan, təxəllüsü - Martuni) Tiflisə dəvət olunmaqla Qafqaz Bürosunun fövqəladə plenumunun çağırılmasına qərar verildi.

1921-ci il 4-5 iyulda Tiflisdə Qafqaz Bürosunun plenumu keçirildi.

**ИЗ ПРОТОКОЛА**
**ВЕЧЕРНЕГО ЗАСЕДАНИЯ ПЛЕНУМА КАВБЮРО ЦК РКП(б)**

*4 июля 1921 года*

Присутствовали[25]: Член ЦК РКП Сталин, члены Кавбюро: тт. Орджоникидзе, Махарадзе, Нариманов, Мясников, Киров, Назаретян, Орахелашвили и Фигатнер.

Секретарь Кавбюро комсомола Брейтман, члены ЦК Грузии: Цинцадзе, Мдивани и Сванидзе.

| Слушали: | Постановили: |
|---|---|
| 5. Карабахский вопрос. При обсуждении этого вопроса выявились две точки зрения и были поставлены на голосование следующие вопросы: | |
| а) Карабах оставить в пределах Азербайджана. | Голосуют за: Нариманов, Махарадзе, Назаретян; против: Орджоникидзе, Мясников, Киров, Фигатнер. |
| б) Плебисцит провести во всем Карабахе с участием всего населения армян и мусульман. | Голосуют за: Нариманов, Махарадзе. |
| в) Нагорную часть Карабаха включить в состав Армении. | Голосуют за: Орджоникидзе, Мясников, Фигатнер, Киров. |
| г) Плебисцит провести только в Нагорном Карабахе и только среди армян. | Голосуют за: Орджоникидзе, Мясников, Фигатнер, Киров, Назаретян. Постановлено: Нагорный Карабах включить в состав ССР Армении, плебисцит провести только в Нагорном Карабахе. |
| 6. Заявление товарища Нариманова: Ввиду той важности, которую имеет карабахский вопрос для Азербайджана, считаю необходимым перенести его на окончательное решение ЦК РКП. | Ввиду того, что вопрос о Карабахе вызвал серьезное разногласие, Кавбюро ЦК РКП считает необходимым перенести его на окончательное решение ЦК РКП. |

При голосовании по вопросу о Карабахе товарищ Орахелашвили отсутствовал
*Секретарь Кавбюро ЦК РКП Фигатнер.*

**ИЗ ПРОТОКОЛА**
**ЗАСЕДАНИЯ ПЛЕНУМА КАВБЮРО ЦК РКП(б)**

*5 июля 1921 года*

Присутствуют: Член ЦК РКП Сталин; члены Кавбюро: тт. Орджоникидзе, Киров, Назаретян, Орахелашвили, Фигатнер, Нариманов и Мясников; наркоминдел АССР Гусейнов:

| Слушали: | Постановили: |
|---|---|
| 1. Тт. Орджоникидзе и Назаретян возбуждают вопрос о пересмотре постановления предыдущего Пленума о Карабахе. | а) Исходя из необходимости национального мира между мусульманами и армянами и экономической связи Верхнего и Нижнего Карабаха, его постоянной связи с Азербайджаном, Нагорный Карабах оставить в пределах Азербайджанской ССР, предоставив ему широкую областную автономию с административным центром в гор. Шуше, входящем в состав автономной области. Голосуют: за 4, воздержались 3. |

| | |
|---|---|
| | б) Поручить Цека Азербайджана определить границы автономной области и представить на утверждение Кавбюро ЦК РКП.<br>в) Поручить Президиуму Кавбюро ЦК РКП переговорить с Цека Армении и Цека Азербайджана о кандидате на чрезвычкома Нагорного Карабаха.<br>г) Объем автономии Нагорного Карабаха определить Цека Азербайджана и представить на утверждение Кавбюро ЦК. |
| *Секретарь Кавбюро ЦК РКП Фигатнер.* | |
| *Источник*: | ЦПА ИМЛ. Ф. 64. Оп. 2. Д. 1. Л. 118, 122—122 об.; К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. С. 90—91, 92. |

Qafqaz Bürosunun bu məsələ ilə bağlı 1921-ci il 5 iyul iclasında qəbul olunmuş yekun qərarında deyilirdi: “...Dağlıq Qarabağa Azərbaycan SSR tərkibində qalmaq şərti ilə geniş ərazi muxtariyyəti verilsin…” 19 iyul 1921-ci ildə Azərbaycan MİK rəyasət heyəti N.Nərimanovun Qafqaz Bürosunun 5 iyul qərarı ilə bağlı hesabatını dinləyir və Azərbaycan MİK-ə “Dağlıq Qarabağın Sovet Konstitusiyası çərçivəsində Regional İcra Komitəsi başda olmaqla daxili idarəetmə hüququ əldə edərək Sovet Azərbaycanının ayrılmaz hissəsi olaraq qalması” barədə əhalini geniş məlumatlandırmağı təklif edir.

5 iyul 1921-ci il tarixli qərar qəbul edildikdən sonra Qafqaz Bürosu tərəfindən Azərbaycan rəhbərliyinə bunu həyata keçirmək tapşırıldı. Həmin vaxt S.Kirov AKP(b) Mərkəzi Komitəsinin birinci katibi təyin olunur.

7 iyul 1923-cü ildə AzMİK sədr M.B.Qasımov (1879-1949) və katib M.Xanbudaqovun (1893-1937) imzası ilə “Dağlıq Qarabağın muxtar bölgəsinin yaradılması” barədə fərmanı qəbul edir. Fərman Dağlıq Qarabağ, Aran Qarabağ, Kürdüstan və ASSR mərkəzi hökumətinin nümayəndələrindən ibarət qarışıq komissiyanın yaradılmasını nəzərdə tuturdu. Göründüyü kimi, AKP(b) Mərkəzi Komitəsinin qətnaməsi ilə fərman arasında fərq var idi: Dağlıq Qarabağ və Aran Qarabağın ümumlikdə seçilməsi əvəzinə fərmanda yalnız Dağlıq Qarabağ qeyd olunmuşdu. Fərmanda muxtariyyətin adı xüsusilə diqqət çəkir - Dağlıq Qarabağın muxtar bölgəsi. Daha sonra o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır. Ümumilikdə, sənəd heç bir xüsusi ciddi qanuni göstərici deyildi. Müqəddimədə xüsusən "1905-1906-cı illərdəki erməni-müsəlman qırğını" barədə danışılır və əvvəlki dövrün "ayrı-ayrı kiçik millətlərin bir-birinə qarşı qoyularaq məhv olmasına" gətirib çıxaran tarixi hadisələrindən bəhs olunur. Fəhlə-kəndli inqilabının və Sovet hakimiyyətinin əsas vəzifəsi hansı formada təzahür etməyindən asılı olmayaraq milli zülmün və bərabərsizliyin aradan qaldırılması, milli düşmənçilik və nifrətin zəhmətkeşlərin beynəlxalq həmrəyliyi, xalqların vahid dövlət birliyində qardaşlıq əməkdaşlığı ilə əvəzlənməsi idi.

Dağlıq Qarabağa muxtariyyət verilməsinin zəruriliyini əsaslandıran arqumentlər kifayət qədər əsassız və çox zəif idi. Birinci bənd: Dağlıq Qarabağın erməni hissəsindən (Dağlıq Qarabağın hansı erməni hissəsindən bəhs edildiyi və sənəddə niyə belə adlandırıldığı qeyd olunmayıb, lakin mövcud olmayan terminologiyanın istifadəsi və mövcud vəziyyətin açıq şəkildə təhrif edilməsi göz qabağındadır) ASSR-in tərkib hissəsi kimi mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağın Muxtar Vilayəti formalaşdırılsın.

İkinci bəndə əsasən, “muxtar bölgənin idarəetmə orqanları - Regional İcra Komitəsi və yerli şuralardır.”

Üçüncü bənddə deyilir: “Regional İcra Komitəsinin formalaşdırılmasına qədər 2 aydan gec olmayaraq daimi icra orqanı seçmək üçün Sovetlər qurultayını çağırmağı öhdəçiliyinə götürəcək Müvəqqəti inqilabi komitə yaradılsın.

İşlərin belə gedişatı Ermənistan bölgə rəhbərliyinə geniş səlahiyyətlər verdi. 16 iyulda (fərmanın qəbulundan 10 gün sonra) AKP(b) Mərkəzi Komitəsinin rəyasət heyəti Şuşa şəhərini Dağlıq Qarabağın muxtar vilayətinin tərkibinə daxil etdi. Burada 1923-cü il Əyalət İcra Komitələri haqqında Əsasnamə tətbiq olunur. Dağlıq Qarabağın muxtar vilayətinə dair tənzimləmə yalnız 26 noyabr 1924-cü ildə qəbul edilir.

Burada diqqət yetirmək lazımdır ki, RKP(b) Qafqaz Bürosunun qərarına əsasən 1921-ci il 5 iyuldan etibarən gələcək Dağlıq Qarabağın mərkəzi Şuşa şəhəri təyin olunurdusa, bu fərmana görə mərkəz Xankəndiyə köçürülür.

Muxtar vilayətin mərkəzinin Şuşadan Xankəndiyə köçürülməsi ideyası ilk dəfə 1921-ci il 8 avqustda L.Mirzoyan tərəfindən AKP(b) MK Siyasi bürosuna göndərdiyi məruzədə irəli sürülür. Şuşa məsələsi 1923-cü il 16 iyulda AKP(b) MK rəyasət heyətinin iclasında müzakirə mövzusu olur və burada onun Dağlıq Qarabağın tərkibinə daxil edilməsi qərarı qəbul edilir.

AzMİK-in Xankəndini Dağlıq Qarabağın muxtar bölgəsinin inzibati mərkəzinə çevrilməsi qərarı Şuşada narazılıq doğurur. 1923-cü ilin avqustunda şəhər əhalisinin və ətraf müsəlman kəndlərinin nümayəndələri AzMİK-ə məktubla müraciət edərək əhalinin mənəvi və mədəni inkişaf imkanının olması üçün Şuşanın muxtar bölgənin mərkəzi olaraq saxlanılmasını xahiş edirlər. Tezliklə DQ-nin muxtar bölgəsi (daha sonra DQMV) haqqında fərmandan sonra 1923-c il 18 sentyabrda Qarabağ Regional Partiya Komitəsinin qərarı ilə Xankəndinin adı daşnak S.G.Şaumyanın və 26 Bakı komissarının şərəfinə dəyişdirilib Stepanakert

olur. Bu, Dağlıq Qarabağın coğrafi adlarının erməniləşdirilməsi kimi çoxillik kampaniyanın ilk addımı idi.

Beləliklə, Azərbaycanın ayrılmaz hissəsi - Qarabağı inzibati-idari cəhətdən məcburən ayırdılar və Dağlıq Qarabağa köçürülən ermənilərə muxtariyyət verdilər. Bununla belə, bu qərar burada yaşayan azərbaycanlıların fikrini nəzərə almadan qəbul olundu. Bu da onların hüquqlarının ciddi şəkildə pozulması demək idi.

1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycana birmənalı olaraq zorakı yollarla tətbiq olundu, DQMV-nin süni şəkildə formalaşdırılması isə elə ilk gündən Azərbaycanda etnik separatizmin və ekstremizmin ocağı oldu.

"Tarixi prizma":1923-cü il. Lozannada ermənilərin Türkiyə torpaqlarına olan ümidləri necə basdırıldı

1920-ci illərin birinci yarısında D.Qarağın zəbt edilməsi cəhdləri (azerhistory.com)

CA&C Press AB (ca-c.org)